**"SINAM" Məhdud Məsuliyyətli**
**Cəmiyyətin direktoru cənab**
**Əbülfət Rəhmanova**

Azərbaycan Respublikası AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda "FARABI" (BTMMN) layihəsi çərçivəsində tətbiq olunan "SERP" proqram təminatına dair

RƏY MƏKTUBU

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin layihəsi çərçivəsində yaradılan "Büdcədən maliyyələşən təşkilatlar üçün Maliyyə və Mühasibatlıq Hesabatları" avtomatlaşdırılmış informasiya - FARABI sistemi AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda tətbiq edilmişdir.

AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda da elektron maliyyə sənədləşməsinin üstünlüklərindən yararlanmağa başlamışdır. FARABI tam milli mühasibat uçotu standartlarına uyğundur və bu standartları nəzərə almaqla yaradılmışdır. Bununla yanaşı sistemin yaradıcısı olan SINAM şirkəti mütəmadi olaraq milli mühasibat uçotunda hər hansı dəyişiklikləri son dərəcə operativ olaraq sistemə daxil edir.

Sistemin tətbiqi nəticəsində Torpaqşünaslıq və Aqrokimya İnstitutunda mühasibat uçotu ilə bağlı bütün sənədlər o cümlədən ştat cədvəli, şəxsi kartlar elektron formata keçirilmiş, əmək haqqlarının və digər ödəmələrin hesablanması avtomatlaşdırılmışdır. Sistem əvvəllər mövcud olan "kagız" sənədləşməsini "elektron" formata keçirmişdir.

Proqram təminatının idarəmiz üçün digər əsas faydalılıqlarından biridə "İnsan resursları" şöbəsi ilə "Mühasibatlıq şöbəsi" arasında sənəd dövriyyəsinə ehtiyyac qalmamasıdır ki, bu da əmək haqqının dəqiq hesablanmasında əməkdaşların işini asanlaşdırmış, əlavə sənəd kütləsinin yığılmasının qarşısını almışdır.

Bununla yanaşı hər əməliyyatın bazada yığılması, heç bir məlumatın itməməsi, istənilən vaxt istənilən hesabatların alınmasının mümkünlüyü, o cümlədən, kadr hesabatları, maliyyə hesabatları (Xərcər Smetasının İcrası haqqında; Maliyyə vəziyyəti haqqında; Maliyyə fəaliyyətinin nəticəsi haqqında; Mənfəət və Zərər; Pul vəsaitinin hərəkəti haqqında; Kapitalda dəyişiklik haqında hesabat), DSMF hesabatları , statistik hesabatların alınması işlərimizi asanlaşdırmışdır.

**Baş mühasib :** **A.A.Sidəliyeva**